# "Xəzan yarpağı" – Sözün əbədi baharı



**Vaqif Osmanlı**

***Müdriklərin yaşı olmur, zəkası, dərrakəsi, intellekti olur. Bəzən elə ahıla rast gəlirsən ki, beynində yel vurub yengələr oynayır. Bəhruzu çoxdan tanıyıram və tanışlığımızdan məmnunam. Üz-üzə gəldiyimiz gündən onu başı qarlı, dağ vüqarlı görmüşəm. İndi 50 yaşındadı. Söhbət nə yaşdadı, nə başda. Bəhruz o yaşda da müdrik idi, gənc müdrik. Vətəncanlı, dostcanlı, sözcanlıydı. İndi də elədir. 'Can" sözünü elə-belə işlətmədim. Bəhruzun doğulduğu Buynuz kəndinə Canalı dağı keşik çəkir. O dağın zirvəsindəki qar və buzlaqların suyundan əmən Göyçay çayı əvvəl kükrək, sonra da aram-aram yol gələrək qoca Şirvan düzlərinə həyat verir. Bu 'can'ların vəhdətindəki ərazidə doğulan Bəhruz başqa cür ola bilərdimi? 'Can'lar birləşib Bəhruz kimi oğula nəfəs, mənəviyyat, təb verib.***

Buynuz da zirvədi, hər iki anlamda. Zirvələrinin məğrurları – dağ keçiləri, dağ kəlləri buynuzları ilə möhtəşəmdi. Buynuz kəndi də insanları ilə. Bütün canlılar təbii mühitin yetirmələridi. Körpəliyindən sıldırım qayaların "monumental" canlı heykəllərini görüb özündə mənəvi keyfiyyətlər formalaşdıranlar yenilməzliyi, məğrurluğu, qartal vüqarı ilə seçilirlər. Bəhruz Məmmədov da seçilənlərdən, seçilmişlərdəndi.

Buynuz kəndi bir də ona görə başdı, zirvədir ki, orada Türk dünyasının hər yerindən boy verən Musa Yaqub ilahi poeziya qalası, söz məbəbi tikib, bu qalanı bütün ömrü boyu yad nəfəsdən qoruyub. O məbəddə saflaşmaq taleyinə yazılanlardandı Bəhruz. Özünü anlayandan həqiqi sözə vurulub, söz də onun sevgisinə laqeyd olmayıb.

Qazi şair 50 yaşında yolumuza "Xəzan yarpağı" səpələdi. Onun "Xəzan yarpağı" sözün baharıdı. Al-əlvan rənglərin qarışığından ilmə-ilmə "toxuduğu" bu söz çələngi möhtəşəm söz xalçasıdı – fikir ilmələri, ornamentləri, əriş-arxacı ilə. Sözsevərləri kövrək və lirik notlarla süslənən bir ömrün ayrı-ayrı ladları ilə - payız və sevgi ovqatlı, barıt və səngər qoxulu, dəniz və qağayı kimi azad duyğuları ilə tanış edən Bəhruz nəhayət ilk mənəvi övladının dünyaya gəlişinə bizi də sevindirdi.

Barıt qoxusu, səngər həyatı, döyüş dostu itkisi 18 yaşından bu yolu könüllü seçən Bəhruzla beş il qolboyun olub. Bu qolboyunluq bir ömür sınağıydı. Bəhruz bu sınaqdan üzüağ çıxdı. İtkiləri də oldu, qazancı da. Vətəni xain yağıdan qorumaq Vətən oğullarının ən ümdə vəzifəsidi. 18 yaşında ali məktəb auditoriyasını nəmli səngərə, qanlı döyüş meydanına dəyişən könüllü Bəhruzun ürəkgöynədən itkiləri Vətən torpaqlarının poliqona çevrilməsi və məğrur zirvələr kimi çiyin-çiyinə dayanan döyüş dostlarının şəhadətə qovuşması idi.

Bəhruz mərhum şair Alim Məhərrəmlinin onun yaradıcılığı barədə nə vaxtsa yazdığı "Özünü yazan şair" (orijinal təqdimatdı, doğrudan da Bəhruz özünü yazır, bəzəksiz-düzəksiz) ədəbi təəssüratlarını ön söz yerinə ilk kitabına yerləşdirməklə bir daha inamımı təsdiq etdi ki, dostcanlıdı, dost dəyərini dəyərləndirəndi, bir çoxları kimi unutqan deyil. Əminəm ki, Alim Məhərrəmlinin də ruhu sevinir. O, Bəhruzun mənəvi dünyasına yaxşı bələd idi. Bəs poetik dünyasına, təxəyyülünə, istedadına? O bələdliyi bu cümlələr tam təsdiqləyir:

"Əslində şairlərin (təbii ki, söz əsl şairlərdən gedir – A.M.) qocası, gənci olmur, şairlərin yaşı illərlə ölçülmür, yazdıqları ilə ölçülür. Bəhruz yaşca gəncdi, amma sinəsinin altında min yaşlı ixtiyar yaşayır elə bil. Bəhruz sonda deyəcəyini, tələsib əvvəldən demir və şeirləri eynirəngli deyil, hərəsi bir ovqat üstündə yazılmış bu şeirlərin udduğu məqam odur ki, onlar həqiqəti, gerçəkliyi ehtiva edirlər, aldadıcı şirinlikdən uzaqdırlar".

"Xəzan yarpağı" qazi şairin cəbhə gündəliyidi, payız etüdləridir, el-oba, yurd, torpaq, Vətən eşqli duyğularıdı, səmimi sevgi etirafları, dalğalı, ləpəli, təlatümlü, qağayılı dəniz ömrünün təlatümləridi. Bu bölgünü edəndə özümü qınadım. Xeyli müddət xarakterinə bələd olduğum Bəhruz dünyasını niyə yetərincə kəşf edə bilməmişəm? Coğrafiyaçı olsam da, bacarıqlı səyyah deyiləmmişg

Qazi şairin ömrünü ayrı-ayrı mərhələlərə ayırsaq, ən ağır və ən qürurlu dövrü birinci Qarabağ müharibəsi illərinə düşür. Onun "Əsgərlik xatirələrim" şeiri hərb tariximizə işıq salan poetik mayakdı, salnamədi. Bəhruz bir özündən müştəbehlə söhbətini şeirə çevirib. Əsgərlikdə kef çəkdiyi ilə qürrələnən bu özündənrazı papasının dibçəkgülü balası qazi şairdən "əsgərlikdə olmusan?" soruşanda gülümsünən Bəhruzun verdiyi cavabdan bir daha əmin oldum ki, o, qeyri-adi insandı. O özündən müştəbeh hardan bilsin ki, Bəhruz nəyə və nə üçün gülümsəyir. "Anlamaq dərd deyil"sə də, ay Bəhruz beyin qırışları və ürəyi piylənmişlərin işi də deyil.

**Başlarından bildik ki, 5 nəfərdilər,**
**Mərmi partlayanda**
**qarışmışdılar bir-birinə.**
**Yük torbalarına yığdıq,**
**Hərəsinə bir baş, bir az əl, ayaq.**
**Onlar çoxdan qarışmışdılar**
**bu torpağa.**
**Amma neyləməli?**
**Gözü yolda qalanlar var,**
**hələ də övlad qəbrini qucaqlayıb**
**hönkürməyə həsrət...**
**...kiminin ayağı kiminin başında,**
**Kiminin başı kiminin əlindəydi onda**
**gecələri şinanayla yatmayan**
**küləklər şəhərində...**

Qazi şair Süleyman Abdullanın "Yada salma" şeiri Bəhruz Məmmədova ünvanlanmış poetik qanlı hərb salnaməsidir. Poetika və qan tam təzadlı bənzətmə olsa, da bu artıq 35 ildir ki, gerçəkliyə çevrilib – söz adamları həm də müsəlləh əsgər olandan. Şeirin ilk bəndindən ölümlü-itimli Qarabağ müharibəsini içinə düşürük. Süleyman Abdulla "danışsan dil yanan, dodaq odlanan, dilin söylədiyi ağıla sığmayan, ürək heç, adam heçg lap dağ odlanan" xatirə-gerçəklikləri vərəqləyir. Bu çağdaş zamanımızın "qorxulu nağıllar"ı deyil, hüznlü, qazi xatirələridir.

**Üzünü çevirmə uşaq tərəfə,**
**Qorxacaq...**
**üzündə meyid rəngi var.**
**Mərmi kirpiyini qırpma hər dəfə,**
**Səngər gözlərindən cəsədlər çıxar.**

**Acı gülüşündən tank oda düşər,**
**Bu top mərmisidir...**
**futbol oynama.**
**Mina çəkmələrin ofsayda düşər,**
**Uçar göy qapıya qıç...**
**qol...**
**oynama!**

Qazi şair Süleyman Abdullanın tükürpədici misralarını oxuyanda ikinci Vətən müharibəsi başlanan kimi "yaddaşına "qəlpə", huşuna "çat" düşənlərin" (S.Abdulla), "müharibə" sözünü eşidib Vətəndən pərən-pərən düşənlərin səsi okeanın o tayından gəldi. Qazi Süleymanların, Bəhruzların və başqalarının ilahi yolunun davamçıları isə "düşmənin başına hirs gülləsini sıxdılar" (S.Abdulla)

Və yeddi bəndlik "qorxulu dəhşət filmi"nin – ssenari müəllifi Süleyman Abdulla, qəhrəmanı Bəhruz Məmmədov olan "Yada salma"nın son kadrları:

**Nolar, o günləri yada salmag yox,**
**Yaddaşa qəlpələr, huşa çat düşər.**
**Bizim nağıllarda göydən alma yox,**
**Allah göstərməsin, raket-zad düşər...**

"Azadlığı bu dünyaya bayraq edib yayan millətə, Qarabağdan gedən qatara bel bağlayıb yatan millətə" Bəhruz bu günümüzün "Yeni carçı"sı kimi (eyni adlı dərginin və qəzetin təsisçisi Bəhruzdur) car çəkir, həyəcan "SOS"-u verir, ün salır:

**Vətən bizi səsləyir,**
**Qalx ayağa, Vətən daşı!**
**Bəsdi muğam, bəsdi yallı,**
**Qoy oxunsun əsgər marşı...**
**Hamı dursun tən, yanaşı.**

Bəhruzun təxəyyülündən qidalanan şeir nümunələrində heca, qafiyə, nöqtə, vergül xətası axtaranlar, dodaq büzənlər - hədəfi yayındıran bədxahlar, o poetik axtarışların dəyərini həqiqətdə, gerçəklikdə, Vətən və millətsevərlikdə, cəsarətdə, ölümün gözünün içinə gözünü qırpmadan baxmaqda, hadisələrə ayıq münasibətdə axtarın, ütülü, şablon qafiyələrdə, pafoslu misralarda yox! İndi şüarçı, yalançı vətənşivəni qulaqbatıran sözbaz və vətənbazlar söz meydanında at oynamağa səy göstərsələr də, onların "sənət"i uzaqbaşı qırxgünlükdür. Bəhruz kimilərin duyğu yarpaqları hayküysüzdür, anlayanlar üçündür, o şeirlərə ayıq düşüncə hakimdir. Bəhruzun "gerçək qəhrəmanları artıq bizə nağılları unutdurub":

**...Millətimin Polad kimi**
**oğulları olsun deyə,**
**Şişirtməyin hər yerindən duranları,**
**Öz-özünü tərifləyib,**
**yalan, xülya quranları...**
**...Bər-bəzəksiz, sadə dildə**
**başa salın balanıza,**
**sevdiyi bir oyuncağı**
**heç kimsəyə vermirsə o**
**deyin o cür keşik çəkib**
**Vətən adlı qalamıza.**
**...Qoy yetişsin yurdumuzun**
**Polad kimi oğulları...**

Bəhruzun "nağıl"larında "çiçəklərin qoxusu bir başqadı, yuxular gerçəkdi, güllə küləyində titrəyir otlar, çoxunun gecəsi qalır sabahsız, hər güllə öpüşü ürək susdurur, külək hər gün bir hava çalır siyasət meydanında".

Bəhruz duyğu və düşüncələrindəki inamı, əqidəni bizə də yansıdır. Qarabağ ünvanlı arzu və ümidlərimizi Vətən oğulları 44 gündə gerçəkləşdirdi. Bəhruz məni də düşüncələrə qərq etdi: niyə növbəti bayrağı İrəvana sancmayaq? "Kişilik məktəbi"ni əla qiymətlərlə bitirən qazi şair inanır və inandırır ki, "məhəbbət isidir soyuq səngərdə, güllə qarşısında duran əsgəri". O, Vətən məhəbbəti dərsinin də əlaçı əsgəridi. Türk-Turan coğrafiyasının möhtəşəmliyinə, nəhəngliyinə inanır, bilir ki, Türk titrəyib özünə döndəndə dünya Türkün olacaq.

**Ey Vətən ümidi, ey şanlı Əsgər,**
**Mətin dayanmışdın, irəli, rəvan.**
**Bayrağı sancmağa növbəti minbər,**
**Nə Laçın? Nə Şuşa? Yalnız İrəvan!**

Çağdaş ədəbiyyatda yaddan çıxan, çox nadir rast gəlinən bir poeziya janrı var – beyinəqoşulma. Söz adamı hansısa bir həmkarının ürəyinə yatan bir misrasından, yaxud bir bəndindən bəhrələnib onun beyninə (təxəyyülünə) qoşulub yeni şeir yaradır. Haçansa Bəhruzun bir misrasından yapışıb onun beyninə qoşulmuşam. Yəqin Bəhruzun beyninə qoşulub öz beynimi gəncləşdirmək, qazi şairin beyni kimi təravətləndirmək könlümdən keçib:

**'Dərd atıram gur ocağa bir qucaq',**
**Höyüş dərddən tüstülənir hey ocaq.**
**Sevinc mağmın, dərdlərimsə çox qoçaq,**
**Baxtım ala, gözüm qara, başım ağ...**

Bəhruz cəbhəyə gedəndə tələbə yoldaşlarına, dost-tanışlarına keçmiş sovet şüarı "Hər şey cəbhə üçün!" haylqıranda bəzi "Vətən, Vətən" bağıran vətənsizlər "hərbi hissədən çıxıb kinoteatrın qarşısında qazlı su dükanında armudlu limonad içib qoltuğundakı qızı ən arxa oturacaqda öpüş atəşinə tuturdu". O vaxt Vətən oğlu xəbərdarlıq edirdi ki:

**... Məndən şeir istəməyin, gözəllər,**
**Küsüb gedib pərim məndən nə vaxtdır.**
**Söz muncuğun məhəbbətlə düzərlər,**
**Sevgi üçün indi yaman bivaxtdır...**

"Bivaxt"dan sonra Bəhruz sevgini qibləgahı bildi. Niyə də bilməsin? Cavid Əfəndi "mənim Tanrım gözəllikdir, sevgidir", Bəxtiyar Vahabzadə "eşq həyat ağacıdır", Əli Kərim "qayıt yerinə qoy Ayı, Günəşi, qayıt sahmana sal bu kainatı", Musa Yaqub "bir məhəbbət harayından oyanmış, birbirinin taleyinə sığınmış, bir arzulu ömürdaşıq, ay sonam" inamlıdırlarsa, niyə onun mənəvi nəvəsi "başımı əyirəm mən o sevgiyə, eşq özüdür od, su, hava, torpaq, göyərən otlar, hər solan yarpaq" inamında, inancında olmasın?

**Ürək ibarətdir bir tikə ətdən,**
**Sevgiylə o, böyük dünya olacaq.**
**Səhər doğan günəş yenə batır ki,**
**Ay da sevgisini göstərə bilsin.**
**Sinəmdəki tarımlanmış sevgi simi,**
**Bir nəğmənin notlarına qəm ələyir.**
**Burax ruhunu getsin,**
**nə salmısan kəməndə...**
**Dünya zindana dönür**
**Eşq içində öləndə...**




(ardı gələn sayımızda)